

## Şair

*Xalq şairi Musa Yaquba ithaf olunur.*

***Təbiət şair deyirlər sənə,***
***El oba vurğundur, şeirlərinə***
***Düşəndə sözünün hərdən sehrinə,***
***Verir ləzzət mənə, dad mənə şair.***

***Sizin tək ustadı hey öyə-öyə,***
***Bəzən sığışmıram heç yerə, göyə,***
***Mənim söz dünyamın şahısan deyə,***
***Qibtə etməkdədir, yad mənə şair.***

***Əzəldən məlumdur, bu xalqa, elə,***
***Təbiniz bənzəyir gur axan selə,***
***İçib şadlıqlığından şadam ki, elə***
***Bənzəmək istəyir şad mənə şair.***

***Elə iz salıb ki, içimdə dərin,***
***Odur ki, hər sözün mənim üçün şirin.***
***Soyuqda sızaqdan yaxşı bir şeirin***
***Olur ancaq mənə, od mənə şair.***

***Cəliləm, eşqindən gözüm dolarsa,***
***Bu yolda gün kimi rəngim solarsa,***
***Ruhunuz üstümdə sayə olarsa,***
***El verər bir gözəl ad mənə, şair.***

<u>*Cəlil Xeyirbəy*</u>

Paralel.- 2023- cü il.- 30 mart.- S.13.